# Azərbaycan Prezidenti Münxendə bütöv bir ordudan çox iş gördü



***Bir neçə gün əvvəl Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirak etdiyi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri keçirildi. Hazırda bu məsələ Azərbaycan və Ermənistanda əsas müzakirə mövzusuna çevrilib.***

Hər iki ölkənin ictimai-siyasi dairələri, politoloqları, jurnalistləri bu fikirdədirlər ki, Azərbaycan Prezidenti müzakirələr zamanı Nikol Paşinyana əsl dərs keçdi. Ermənistanda baş nazirin mat vəziyyətində qalmasından böyük məyusluq hökm sürməkdədir.

**Məsələ ilə bağlı Azərbaycan Mətbuat Şurasının sədri Əflatun AMAŞOV öz fikirlərini belə ifadə etdi:**

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirədə özünün liderlik keyfiyyətlərini bir daha nümayiş etdirdi. Bütün dünya onun timsalında liderlikdə mahir diplomatik bacarıq və səriştənin nə dərəcədə böyük əhəmiyyət daşıdığını gördü. Cənab Prezident, həmçinin tarixi faktların siyasət meydanına daşınması nümunəsini ustalıqla ortaya qoydu.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan dövləti əsl əzmkarlıq göstərir. Mövcud istiqamətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər var. Amma cənab İlham Əliyev prinsipiallığı, ardıcıllığı, qətiyyəti ilə özü ayrılıqda Qarabağ savaşı aparır. Çıxışları, fikirləri ilə dünyaya Azərbaycanın dirənişinin səbəblərini izah edir, bir qarış torpağını belə güzəştə getməyəcəyinə əminlik aşılayır.

Bu cür mübariz ruh bütöv bir ordunun müharibə meydanında görəcəyi iş qədər müstəsna əhəmiyyət daşıyır. Və bu ruhun qarşısında aciz duruma düşməyin Nikol Paşinyan obrazı da var. Beynəlxalq ictimaiyyət bir daha o obrazın arqumentsizliyini, haqsızlığını, ucuz populizmini gördü.

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*

Xalq qəzeti 2020.- 20 fevral.- S.4.